**Mehriban Mehdi qızı Mehdizadə**

**UOT:339.9;339.9:061; JEL:F10;F19.**

# Müasir iqtisadi şəraitdə aqrar sahibkarlığın inkişaf etdirilməsinin əsas xüsusiyyətləri

***Xülasə***

*Tərtib olunmuş məqalədə Azərbaycanda aqrar sahibkarlığın inkişafi sahəsində mövcud problemlər araşdırılmış və onun əsas inkişaf xüsusiyyətlərinə baxılmışdır. Tədqiqatın əsas məqsədi Azərbaycanda aqrar sahibkarlığın inkişafının mühüm istiqamətlərini müəyyənləşdirməkdir. Məqalədə tədqiqatın metodologiyası kimi təhlil olunan aqrar sahə üzrə məlumatların iqtisadi-statistik vasitələrlə təhlili seçilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti alınan nəticələrin ölkədə aqrar sahibkarlığın inkişafında istifadəsinin məqsədəuyğun olmasıdır. Tədqiqatın əsas nəticələri kimi ölkənin regionlarının inkişafında aqrar sahibkarlığın rolunun və təsirinin böyük olduğu göstərilmişdir. Aparılmış tədqiqat əsasında elmi yeniliklər kimi aqrar sahibkarlıq fəaliyyətinin inkişafının ölkənin aqrar sektorunun rəqabətqabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərməsi elmi baxımdan əsaslandırılmışdır. Həyata keçirilmiş təhlil əsasında aqrar sahibkarlığın fəaliyyəti istiqamətində mövcud problemlər tədqiq olunmuş və onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr təqdim olunmuşdur.*

***Açar sözlər:*** *aqrar iqtisadiyyat, inkişaf, milli iqtisadiyyat, sahibkarlıq, məhsul, maliyyə, rəqabətqabiliyyəti, investisiya*



## Giriş

Müasir bazar iqtisadiyyatı şəraitində aqrar sahədə yeni iqtisadi idarəetmə prosesi müasir və təkmil idarəçilik metodunun, mexanizminin olmasını tələb edir. Belə ki, son illər ölkənin aqrar sahəsinin funksional, sahəvi, istehsal və idarəetmə strukturunda bir sıra nöqsanlar müşahidə olunmaqdadır. Nəzərə almaq lazımdır ki, aqrar sahənin bütün pillələrində idarəetmə mexanizmi idarəetmənin ümumi prinsipləri və üsulları ilə sıx əlaqəlidir. Onların bir-biri ilə əlaqələndirilməsi forması, sistem halında tətbiq edilməsi idarəetmə mexanizminin fəaliyyəti üçün mühüm şərtdir. Ölkəmizdə aqrar sahədə idarəetmə mexanizminin ifadə etdiyi məqsəd bu sistemdə fəaliyyəti optimallaşdırmaqdan ibarətdir. Nəzərə almaq lazımdır ki, minimum az xərclə və daha çox iqtisadi nəticələrə nail olmaqla əhalinin ərzaq məhsullarına olan tələbatını təmin etmək olar. Müasir bazar münasibətləri şəraitində kənd təsərrüfatı mənşəli son məhsulun satışından əldə edilən gəlirdə həmin iştirakçıların hər birinin payı mühüm göstərici olsa da, tam maliyyə nəticələrini qiymətləndirməyə imkan vermir.

## Aqrar sahibkarlığın inkişaf etdirilməsinin əsas xüsusiyyətləri

Son illər Azərbaycanın iqtisadi rayonları öz potensialına, təbii sərvətlərinin miqyasına və növünə, məşğulluq səviyyəsinə görə fərqlənirlər. Qeyd edək ki, məhsuldar qüvvələr regionlar arasında qeyri-bərabər paylanmışdır. Bakı şəhərinin iqtisadi və sosial baxımdan rayonlara nisbətən daha sürətlə inkişaf etməsi əhalinin regionlardan sürətlə paytaxta axınına səbəb olmaqdadır. Kənd təsərrüfatı istehsalında özəl bölmənin aparıcı mövqeyi sahibkarların və ailə kəndli təsərrüfatlarının rəqabətqabiliyyətinin maliyyə təminatı məsələlərini ön plana çıxarır. Qeyd olunan problemin həlli, nəticə etibarı ilə, istehsal edilən məhsulun keyfiyyəti ona çəkilən xərclərin beynəlxalq səviyyəsinin təmin olunmasına istiqamətlənməlidir. Regionlarda aqrar sahibkarlığın rəqabətqabiliyyətlilik üzrə fəaliyyəti maliyyə nəticələri ilə bağlıdır. Maliyyə nəticələri isə öz növbəsində gəlir və xərclərin nisbətində özünü göstərir. Kənd təsərrüfatı məhsulunun tarladan (fermadan) istehlakçıya çatdırılması prosesi bütün iştirakçıların xərclərini də müqayisəli qiymətələndirməyə imkan verməlidir. Kənd təsərrüfatı

*©Mehriban Mehdi qızı Mehdizadə i.f.d., AzDİU*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

sahəsində vasitəçilərin gəlir və xərclərini müqayisə edərkən onların vəsait qoyuluşlarının müddətini, inhisarçılıq iddialarının reallıq dərəcəsini, məhsulun keyfiyyət-qiymət nisbətində alıcı maraqlarını nəzərə alma səviyyəsini, tranzaksiya xərclərini təhlil etmək lazımdır. Sadalanan göstəricilərin, adətən kompleks şəkildə təhlil olunmaması məhsulu aralıq və ya son istehlakçıya çatdıran emal və xidmət qurumlarının fəaliyyətinin rentabelliyini qiymətləndirməyə çətinlik yaradır. Azərbaycanda aqrar sahədə sahibkarlıq fəaliyyətinin maliyyə mənbələrinə bunlar aid edilir: sahibkarın öz vəsaitləri və eləcə də cəlb edilmiş yerli və xarici maliyyə vəsaitləri, dövlət büdcəsindən ayırmalar. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafına əngəl törədən başlıca səbəb həmin fəaliyyətin maliyyə mexanizmi ilə əlaqədardır. Regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə resurslarına olan tələbatının ödənilməməsi bu sahədə problemlərin yaranmasına gətirib çıxarır. Aqrar sahibkarın cəlb edilmiş vəsaitlərə tələbatının ödənilməsi prosesi dərindən araşdırılmalıdır. Bildiyimiz kimi kreditlər və investisiyalar aqrar sahibkarların cəlb etdiyi və ya prinsipcə cəlb edə bildiyi vəsaitlərin əsas mənbəyidir. Azərbaycanda bankların, qeyri-bank kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatının inkişafına cəlb edilməsi prosesi yüksək səviyyədə deyildir. Bildiyimiz kimi kommersiya banklarının kredit siyasəti aqrar sahənin fərqli xüsusiyyətlərin və milli iqtisadiyyatın bu sahəsinin əhəmiyyətini nəzərə almır [2]. Bank-kredit sistemində islahatlar milli iqtisadiyyatının sahə xüsusiyyətlərini önə çəkməli, o cümlədən aqrar sahibkarlığın himayə olunması prosesi ciddi şəkildə nəzərə almalıdır. Ölkəmizin kənd təsərrüfatının fəaliyyətinin dəstəkləməsi istiqamətində mühüm rol oynayan Sahibkarlığa Kömək Milli Fondunun prinsipləri müvəkkil bankların (kredit təşkilatlarının) fəaliyyətində prioritet olmalıdır. Bu sahədə yaranmış problemlərin aradann qaldırılması üçün bank sisteminin adaptasiya qabiliyyətinin yüksəldilməsi, girov mexanizminin aqrar iqtisadiyyatının reallıqlarına uyğunlaşdırılması zəruridir. Pul-kredit siyasətində aparılan müvafiq təkmilləşdirmələrin davam etdirilməsi məqsədəuyğundur. Kənd təsərrüfatı məhsullarının emalı və satışı ilə məşğul olan sahibkarların bank kreditlərinə tələbatının ödənilməsi vacibdir. Maliyyə təminat səviyyəsinin yüksəldilməsi aqrar sahibkarlığın rəqabətqabiliyyətinin yüksəldəlməsinin vacib şərtidir.



Azərbaycanda son dövrlər kənd təsərrüfatı sahəsi üzrə ümumi məhsul istehsal həcmində də ciddi inkişaf dinamikası müşahidə olunmuşdur. Statistik təhlillər onu göstərir ki, 2016-cı ildə bu göstərici 5632,4 mln.manat olmuşdursa, 2018-ci ildə isə bu göstərici artaraq 7010 mln.manata çatmışdır. Əvvəlki dövrlərlə müqayisədə 2020-ci ildə bu göstərici artaraq 8428,9 mln.manat təşkil etmişdir (Şəkil 1). Bütün bunlar aqrar sahədə uğurla həyata keçirilən iqtisadi siyasətlə bağlıdır [6]. Ölkəmizdə regionların inkişafı, kənd təsərrüfatına yönələn dövlət investisiyaları koordinasiya edilən proqramlar vasitəsi ilə həyata keçirilir. Regionların inkişafına yönəldilən proqramlarda aqroservis xidmətləri və yığılmış məhsulun kommersiya əsaslı ilkin yığım bazalarının (anbarlarının) genişlənməsinə daha çox diqqət verilir. Azərbaycanda aqrar sahibkarlıq fəaliyyəti rəqabətqabiliyyətinin yüksəldilməsində mühüm rol oynaya bilər. Yerli və xarici kapitalın aqrar sahibkarlığın inkişafına yönəldilməsi qabaqcıl beynəlxalq təcrübədə məlum olan innovasiyalı maliyyə texnologiyalarının tətbiq imkanlarının genişləndirə bilər. Müasir dövrdə aqrar sahibkarlıq subyektləri bir sıra iqtisadi funksiyaları öz üzərinə götürür. Onun müasir tələblər baxımından təcrübəsinin azlığı faktı diqqətdən yayınmamalıdır. Ümumiyyətlə, aqrar sahədə sahibkarlığın maliyyə münasibətlərinin yeniləşməsi daha ciddi hazırlıq tələb edir. Belə ki, bu proses nəzəri-metodiki, təcrübi aspektləri əhatə etməli konkret şərait üçün hərtərəfli təhlildən sonra istifadə oluna bilən qabaqcıl nümunələrə əsaslanmalıdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 1.**
**Azərbaycan Respublikasına kənd təsərrüfatı sahəsi üzrə qeydə alınmış ümumi məhsul həcminin dinamikası (mln.manat)**




**Mənbə: ARDSK məlumatları əsasında müəlif tərəfindən tərtib olunmuşdur.**

Beynəlxalq təcrübədə sahibkarın istehsal-maliyyə fəaliyyətinin qiymətləndirilməsi zamanı fərqli göstəricilər sistemindən istifadə olunması münasib deyildir. Nəzərə almaq lazımdır ki, nəzəri-metodoloji, həm də təcrübi səviyyədə müşahidə olunan fikir ayrılıqları aqrar sahibkarın rəqabətqabıliyyətinin maliyyə mexanizminin təkmilləşdirilməsinə mənfi təsir göstərir [3]. Aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rəqabətqabıliyyətinin qiymətləndirilməsi üçün istifadə olunan maliyyə göstəriciləri sistemində, təcrübi araşdırmalara və elmi əsaslandırmaya üstünlük verilməlidir. Bu halda yeni tələblərə çevik reaksiya verən göstəricilərin diqqət mərkəzində olması vacibdir. Aqrar sahibkarlıq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin göstəricilər sistemi kimi aşağıdakılar qəbul olunur: aqrar sahə üzrə natural ifadədə məhsul istehsalı və satışı; ümumi məhsul istehsalı, satılmış məhsul; aralıq istehlak xərcləri; yeni yaradılmış əlavə dəyər; mülk, əmlak və vəsaitin icarəyə verilməsindən və satışından əldə olunan gəlir; istehsala yönələn subsidiyalar; amortizasiya ayırmaları; icarə haqqının ödənilməsi; faiz ödəmələri; cəlb edilmiş işçilərin əmək haqqına və sosial sığortaya ödənişlər; xalis gəlir; əsas istehsal fondları; işçilərin orta illik sayı; orta aylıq əmək haqqı; əmək məhsuldarlığı. Son illər Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsində fərdi sahibkar təsərrüfatlarının sayında da ciddi dəyişikliklər qeydə alınmışdır (Şəkil 2). Belə ki, əgər 2015-ci ildə ölkəmizdə 1534 kənd təsərrüfatı sahəsində fərdi sahibkar subyekti mövcud olmuşdursa, 2017-ci ildə bu göstərici azalaraq 955, 2020-ci ildə isə 804 olmuşdur. Aparılmış təhlil onu göstərir ki, son illər aqrar sahədə sahibkarlıq subyektlərinin sayı azalmaqdadır. Məhz buna görə də sahibkarlıq fəaliyyətinin inkişafına iqtisadi dəstək artırılmalıdır.

**Şəkil 2.**
**Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsində fərdi sahibkar təsərrüfatlarının sayı**




**Mənbə: ARDSK məlumatları əsasında müəlif tərəfindən tərtib olunmuşdur.**



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Aparılmış təhlillər onu göstərir ki, aqrar sahibkarların ciddi investisiya layihələrində iştirak səviyyəsi yüksək deyildir. Qeyd edilən məsələnin həllində məqsədli proqram yanaşmasından istifadə perspektivlidir. Ölkəmizdə aqrar sahəyə investisiya qoyuluşlarının azlığı səbəbindən hələ də likvid vəsait çatışmamazlığı qeydə alınmaqdadır. Bunun üçün aqrolizinqin genişlənən imkanlarından səmərəli istifadə etmək lazımdır. İlk öncə lizinq obyekti kreditə nisbətən ödəniş qabiliyyətsizliyindən daha etibarlı sığorta oluna bilir. Məsələn, lizinq şirkəti zərurət olduqda öhdəliyin ödənilməsi üçün əmlakı geri ala bilmək imkanlarına malikdir. Aqrolizinq şirkətləri aqrar sahibkara böyük məbləğdə kapital sərf etmədən müasir texnikadan istifadə etməyə və icarə haqqını həmin avadanlıqların istifadəsindən əldə edilən mənfəət hesabına tədricən ödəməyə imkan verir. Eyni zamanda lizinq əməliyyatları müddətində avadanlığın xarab olması ilə bağlı risklər aqrolizinq şirkətininə aiddir. Regionlarda idarəetmənin, xüsusilə də ərazi və sahəvi idarəetmənin inkişafı, düzgün struktur siyasətin həyata keçirilməsindən asılıdır. Son illərdə bu sahənin vahid idarəetmə və planlaşdırma obyekti kimi ayrılmasına baxmayaraq yeni idarəetmə sistemində nəzərdə tutulan imkanlardan tam istifadə edilməmişdir. Nəzərə almaq lazımdır ki, yuxarı idarəetmə mərhələlərində təşkilati strukturun mürəkkəbliyi və onun fəaliyyətini təkrar edən idarəetmə mərhələlərinin mövcudluğu bu növ nöqsanlardandır. İdarəetmə orqanlarının fəaliyyətində sahələrarası məsələlər həll olunarkən sahəçilik prinsipi saxlanılmaqdadır, nəticədə yeni iqtisadi üsulların tətbiqinə maneəçilik yaranır [4].

**Aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri**

Ölkədə fəaliyyət göstərən lizinq bazarı aqrar iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Aqrar sahə üzrə sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətinin yüksəldilməsi mümkün maliyyə mənbələrindən birgə istifadə imkanlarından da birbaşa asılıdır. Ona görə də aqrolizinq fondunun büdcə, kredit, investisiya və müvafiq istehsal, emal, satış və xidmət obyektlərinin vəsaiti hesabına formalaşması əlamətdardır. Bildiyimiz kimi aqrolizinq şirkəti regionlarda aqrar sahibkar qarşısında avadanlığın saxlanması, sığortalanması, təmiri, istehsalın idarə edilməsi və s. kimi öhdəliklər götürə bilər. Bunları nəzərə alaraq öhdəliklərin bütünlüklə icrası üçün hüquqi-normativ bazanın və çevik idarəetmə mexanizminin yaradılması məqsədəuyğundur. Sahibkarlar məhz lizinq hesabına aqrar məhsulların emalı müəssisələrini yaratmaqla aqroemal məhsulları ilə daxili bazarda layiqli mövqe tutmağa cəhd göstərirlər. Vergi-kredit və gömrük güzəştlərinin tətbiqi aqrar sahibkarlara keyfiyyətli və əlverişli qiymətə məhsul istehsal edərək onun daxili və xarici bazarlara çatdırılmağa imkan verir [5]. İstehsal və emal olunmuş aqrar məhsulun rəqabətqabiliyyəti qiymət və keyfiyyətin əsasında formalaşır. Ümumiyyətlə, aqrar sahibkarın rəqabətqabiliyyəti enerji daşıyıcılarının və aqrar sahəyə lazım olan sənaye məhsullarının qiymətlərinin tənzimlənməsi nəticəsində təşəkkül tapır. Postsovet məkanı ölkələrinin təcrübəsi onu göstərir ki, dövlət büdcəsi kənd təsərrüfatı məhsullarının zəmanətli qiymətlərlə satınalınmasında əsas rol oynayır. Müasir aqrar sahibkarlığın maliyyə təminatında mhüm rol oynayan bu mexanizmin müvafiq proteksional tədbirlər sistemi ilə koordinasiya olunması vacibdir. Bu məqsədlə müvafiq tədbirlər həyata keçirilməlidir: regionlarda aqrar məhsuldarlığın proqnozlaşdırılması, aqrar-sənaye istehsalının inkişaf tendensiyalarının qiymətləndirilməsi; daxili bazarda aqrar sahə məhsulları üzrə qiymət dəyişmələrində, qiymət tənzimlənməsində nəzərə alınan amillərin sayının artırılması üçün həmin məlumat banklarından istifadə imkanları gerçəkləşdirilməldir; aqrar məhsul qiymətlərinin regional differensasiyası elmi baxımdan əsaslandırılmalıdır. İqtisadi rayonlar üzrə aqrar sahibkarın maliyyə durumunun dövlət satınalma qiymətləri və məhsul istehsalından asılı real məsrəflərin olması, tənzimlənən göstəricilər sırasına aid edilməlidir. Müvafiq göstəricinin səviyyəsinin yüksəlməsi aqrar sahibkarın marketinqə yönəlik fəaliyyətinin azalması deməkdir. Bu məsələ ixracyönümlü istehsal potensialının



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

reallaşdırılması baxımından əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, satılan məhsulların ümumi həcmində dövlət satınalmasının artan xüsusi çəkisi aqrar sahibkarların rəqabətqabiliyyətinin zəifləməsi ilə müşayiət oluna bilər ki, bu müsbət hal hesab olunmur. Aqrar sahədə fəaliyyərt göstərən sahibkarın satdığı məhsulların ümumi həcmində dövlət satınalmalarının payı azala da bilir. Bu zaman aşağıdakı proseslər müşahidə oluna bilir: aqrar sahədə məhsul itkilərinin həcmi artır, yeni satış bazarlarının axtarışı sürətlənir, məhsulun saxlanması xərcləri artır, istehsal və emal məhsulunun sığortalanmasına zərurət yaranır [3]. Aqrar sahə üzrə zəmanətli qiymətin əsasında duran maya dəyərinin hesablanması həmin qiymətlərin aşağı həddinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malik mərhələdir. Ümumiyyətlə, qiymət siyasəti iqtisadi və sosial problemlərin həllində mühüm təsirə malikdir. Aqrar sahə üzrə zəmanətli və münasib qiymətlərin təyin olunması üçün dərin araşdırmalar tələb olunur. Aqrar sahibkarların istehsal etdiyi məhsulların qiymət əmələgəlmə sisteminin təkmilləşdirilməsi vacibdir. Bu sistem zonalar üzrə qiymətlərin əsaslandırılmış differensiasiyasını, qiymət tənzimlənməsində daha çox amillərin nəzərə alınmasını, bitkiçilik və heyvandarlıq məhsullarının qiymətləri arasında əsaslandırılmış nisbətlərin müəyyən edilməsini özündə ehtiva edir. Qiymət mexanizminin təkmilləşdirilməsi hesabına aqrar sahəni inkişaf etdirmək mümkündür. Eyni zamanda aqrar sahənin rəqabətqabiliyyətini əhəmiyyətli surətdə yüksəltmək mümkündür. Regional səviyyələrdə müəyyən edilən kvotalar hüdudunda dövlətin ehtiyaclarını ödəmək üçün məhsul alınarkən əmtəə istehsalçıları ilə razılaşdırılmaqla tətbiq olunan tənzimlənən zəmanətli qiymətlər mühüm rol oynayır. Tənzimlənən qymətlər kənd təsərrüfatı təsisatlarının istehsal etdiyi məhsula çəkdiyi xərcləri tam əhatə edə bilir.

Dövlət satınalma qiymətləri müəyyən edilərkən,bəzən son bir neçə ildə bu və ya digər ərazidə məhsulun maya dəyərinin orta səviyyəsinin əsas götürülməsi əslində, sahə üzrə orta göstəricilərin istehsalın intensivliyinin, fondlarla və əmək resursları ilə təminatın orta səviyyəsinə yaxın olan müəssisələrin seçilməsi deməkdir. Nəzərə almaq lazımdır ki, aqrar sahədə məhsulun zəmanətli qiyməti yalnız əmək məhsuldarlığı orta səviyyədən daha yüksək, maya dəyəri isə orta göstəricilərdən aşağı olan qurumlarda əlverişli yığım normalarına şərait formalaşdırır. Qeyd edək ki, öz vəsaitləri kifayət etməyən aqrar təsərrüfatlarda, qeyd olunan qaydada hesablanan zəmanətli qiymətlər, adətən minimal yığım normasını təmin edə bilmir. Rəqabətqabiliyyətli kənd təsərrüfatı istehsalının təşkilinə yönəlmiş dövlət tənzimlənməsi prosesində bir sıra məsələlər nəzərə alınır. Belə ki, kənd təsərrüfatı məhsullarının sərbəst (müqavilə) qiymətləri və tənzimlənən qiymətləri, yəni məqsədli, təminatlı girov, tövsiyə edilən və yuxarı hədd qiymətlərinin birgə tətbiqi daha məqsədəuyğundur. Ölkəmizdə aqrar sahibkarlığın fəaliyyəti üzrə maliyyə problemlərinin həlli bazarın iqtisadi tənzimlənməsinin, istehsalın subsidiyalaşdırılmasının, vergi, kredit, qiymət stimullaşdırılmasının mükəmməl sistemini reallaşdıran dövlət proteksionizmi siyasəti hesabına təmin oluna bilər.

**Nəticə**

Aqrar sahə üzrə dövlət himayəsinin birbaşa vasitəsi kimi, cari problemlərin təcili həllinə cəlb edilən büdcə vəsaitləri təsərrüfatçılıq formalarından asılı olmayaraq əmtəə istehsalçılarına eyni şərait yaratmaqla onların sahibkarlıq fəaliyyətinin inkişafında, rəqabətqabiliyyətinin yüksəldilməsində təsiri hərtərəfli əsaslandırılmalıdır. Ona görə də regionlarda istehsal olunmuş məhsullar üzrə qiymətin əsasını təşkil edən maya dəyərinin səviyyəsi göstəricisi nəzərə alınmalıdır. Müvafiq yanaşma aqrar sahibkarlığın maliyyə problemlərinin həllində mühüm rol oynaya bilər. Mövcud problemlərin aradan qaldırılması üçün davamlı olaraq məqsədəuyğun tədbirlər həyata keçirmək lazımdır. Bu tədbirlərə bunları aid etmək mümkündür: regionlarda aqrar sahə üzrə sahibkarlıq fəaliyyətində struktur dəyişikliklərinin aparılması, sahələrarası münasibətlərin yenidən formalaşdırılması; aqrar



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahibkarlığın inkişafını təmin etmək məqsədilə aqrar təsərrüfatlara müəyyən güzəştli imtiyazların verilməsi; inkişaf etmiş ölkələrin aqrar sahədəki təcrübələrindən ölkəmizdə geniş istifadə edilməsi; emal müəssisələrini xammal regionlarına yaxınlaşdırmaq yolu ilə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi; aqrar sahədə fəaliyyət göstərən sahibkarların ixrac imkanlarının stimullaşdırılması.

**Ədəbiyyat**

1. Aliyev. İ.H. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri, Bakı: Elm, 2007, 227 s
2. Qulıyev E.A. Aqrar iqtisadiyyat. Baki.: Kooperasiya nəşr., 2015, 320 s.
3. Babayeva V.M. Aqrar sahənin innovasiyali inkişafinin prioritet istiqamətləri // Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, Bakı: Elm, 2020, № 4 (34) s.77-81
4. Abdullayev K.N. Müasir iqtiadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri“İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” mövzusunda beynəlxalq elmi konfrans (8-9 iyul 2020-ci il) Sumqayıt Dövlət Universiteti. Sumqayıt.: SDU nəşr., 2020, s. 455-459
5. Волгина Н.А. Международная экономика, Москва.: Эксмо, 2010, 480 с.
6. www.stat.gov.az / statistik göstəricilər 2020.



***Мехрибан Мехти кызы Мехдизаде***

**Основные особенности развития аграрного предпринимательства в современных экономических условиях.**

***Резюме***

*В статье рассматриваются существующие проблемы в развитии аграрного предпринимательства в Азербайджане и рассматриваются его основные черты развития. Основной целью исследования является выявление важных направлений развития аграрного предпринимательства в Азербайджане. В статье выбран анализ данных по аграрному сектору экономико-статистическими средствами, который анализируется как методология исследования. Важность применения исследования заключается в целесообразности использования полученных результатов в развитии аграрного предпринимательства в стране. Основные результаты исследования показывают, что развитие аграрного предпринимательства необходимо для развития аграрного сектора страны. На основе исследования научно обосновано, что развитие аграрного предпринимательства как научной инновации положительно влияет на повышение конкурентоспособности аграрного сектора страны. На основе анализа изучены существующие проблемы в сфере аграрного предпринимательства и представлены предложения и рекомендации по их устранению.*

***Ключевые слова:*** *аграрная экономика, развитие, народное хозяйство, предпринимательство, продукт, финансы, конкурентоспособность, инвестиции.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Mehriban Mehdi Mehdizadeh***

***The main features of the development of agricultural entrepreneurship in modern economic conditions.***

***Summary***

*The article examines the existing problems in the development of agricultural entrepreneurship in Azerbaijan and examines its main features of development. The main purpose of the study is to identify important areas for the development of agricultural entrepreneurship in Azerbaijan. The article chooses the analysis of data on the agricultural sector by economic and statistical means, which is analyzed as a research methodology. The importance of applying the study lies in the expediency of using the results obtained in the development of agricultural entrepreneurship in the country. The main results of the study show that the development of agricultural entrepreneurship is necessary for the development of the country's agricultural sector. On the basis of the study, it is scientifically substantiated that the development of agricultural entrepreneurship as a scientific innovation has a positive effect on increasing the competitiveness of the country's agricultural sector. Based on the analysis, the existing problems in the field of agricultural entrepreneurship were studied and proposals and recommendations for their elimination were presented.*

***Keywords:*** *agrarian economy, development, national economy, entrepreneurship, product, finance, competitiveness, investment*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.02. 2022.***
***Çapa qəbul olunub: 21.02.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*